**Rafael Sabir oğlu HÜSEYNOV**
Azərbaycan Kooperasiya Universiteti, doktorant
E-mail:rafael.huseynov.77@bk.ru

# AQRAR SAHƏNİNİN İNKİŞAFININ İNVESTİSİYA-İNNOVASİYA TƏMİNATININ YAXŞILAŞIDIRILMASI İSTİQAMƏTLƏRİ

**Xülasə**

Kənd təsərrüfatının davamlı və rəqabətli inkişafı investisiya və innovasiya təminatına əsaslanır. Bu da müxtəlif mənbələrdən əlverişli şərtlərlə investisiyaların cəlb olunmasını və innovativ texnologiyaların tətbiqini tələb edir.Burada beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilən proqram və layihələrin uğurla icra olunması da mühüm əhəmiyyət kəsb edir.Qeyd olunan vəzifənin uğurlu həlli yeni iqtisadi rayonlaşma çərçivəsində milli iqtisadiyyatın dayanıqlı inkişafına zəmin yarada bilər.

Təqdim olunan məqalədə aqrar sektorun investisiyalaşdırılmasının və innovativ inkişafının səmərəli istiqamətləri barədə araşdırmalar öz əksini tapmışdır.

**Açar sözlər:** inkişaf, investisiya, kredit, fond, məhsuldarlıq, aqrobiznes.

**UOT:** 338
**DOİ:** 10.54414/AQMS9871

## Giriş

Aqrar sahənin davamlı inkişafında məqsədli investisiya siyasəti,sahənin malik olduğu maövcud investisiya potensialının və innovasiyaların tətbiqi imkanlarının qiymətləndirilməsi, eləcə də müvafiq fəaliyyət sferası üçün səciyyəvi olan iqtisadi risklərin idarə edilməsi mühüm əhəmiyyətə malikdir. Burada investisiya çatışmazlığı ciddi problemlər yarada bilər.Beləki, aqrar sferada uzun müddət ərzində vəsait çatışmazlığının olması innovativ inkişaf dinamikasını zəiflətməklə təsərrüfat subyektlərinin gələcək fəaliyyətinə ciddi maneçilik yaradır. Bu baxımdan aqrar sahənin daim dövlət tərəfindən tənzimlənmsi zərurətə çevrilir.Ona görə də hazırkı dövrdə başlıca vəzifə potensial investorların maraq və maənafelərinə uyğun olan investisiya mühiti yaradılmalı və elmi-texniki potensialın inkişafı təmin olunmalıdır.

Kənd təsərrüfatı məhsullarının istehsalının artırılması və keyfiyyətinin yüksəldilməsi zəmnində bir hissəsinin daxili bazara(emala), digər hissəsinin isə xarici bazarlara çıxarılması ölkəmizin valyuta gəlirlərini artıra bilər. İxracdan əldə olunan valyuta vəsaitləti bilavasitə aqrar sahənin özünün investisiya təminatını yüksəldə bilər. Məhsuldarlığın artırılması baxımından investisiya tədbirləri sırasında aqrar sfera müəssisəlinin elmi-texniki tərəqqinin son nailiyyətləri olan müasir texnikaya və texnologiyaya tələbatının ödənilməsi mühüm yer tutmalıdır. Bundan əlavə maliyyə-investisiya mexanizmi vasitəsilə özünün maliyyələşdirə bilməyən və zərərlə işləyən aqrar sektor müəssisələrinin və qurumların fəaliyyəti nəzarətə götürülməli və fəaliyyət göstəricilərinə görə stimullaşdırılmalıdırlar [2,s.47].

**Aqrar sahənin investisiyalaşdırılmasının səmərəli variantları**

Aqrar sahənin davamlı inkişafı naminə xarici investisiyaların cəlb edilməsi, maliyyə-kredit qurumları ilə qarşılıqlı əlaqələrin genişləndirilməsi, idxal olunan aqrar istehsal məhsullarının əvəzlənməsi üçün aqrar sahibkarlıq subyektlərinə davamlı maliyyə dəstəyi olmalıdır. Qarşıya qoyulan məqsədlərə çatmaq üçün aqrar subyektlərin münasib şərtlərlə kreditləşdirilməsi imkanlarına sahib olan ixtisaslaşdırılmış aqroparklar yaradılmalıdır. Əlverişli maliyyə mənbələrinin müəyyən edilməsi və mövcud maliyyə-investisiya resurslarından səmərəli istifadə ilə bağlı vəzifələr geniş elmi araşdırmalara və qabaqcıl təcrübəyə əsaslanmaqla uğurla həll edilə bilər.

İqtisadiyyatın başqa sektorları kimi, aqrar sahədə makroiqtisadi tənzimlənmə və onun dayanıqlı inkişafı investisiya-innovasiya fəaliyyətinin səmərəli təşkilindən asılıdır.Ümumiyyətlə, yeni iqtisadi rayonlaşma müstəvisində şəraitində

aqrar sahədə iqtisadi islahatların dərinləşməsi və onun keyfiyyət mərhələsinə keçidinin sürətləndirilməsi prosesi maliyyə, kredit və vergi elementləri vasitəsilə istehsalın inkişafının stimullaşdırılmasını, yeni iş yerlərinin yaradılmasını zəruri etmişdir.

Aqrar sahənin makroiqtisadi tənzimlənməsi prosesində maliyyə resurslarının iqtisadi cəhətdən mahiyyətini - pul tədavülünün sabitləşdirilməsi, kredit faizlərinin sosial-iqtisadi proseslərin inkişafı istiqamətində müəyyənləşdirilməsi, eyni zamanda kreditə olan ehtiyacın ödənilməsi və kreditlərdən istifadəyə nəzarət olunması və s. təşkil edir.Aqrar sahəyə kreditlərin verilməsində büdcə vəsaiti mühüm yer tutur.Dövlət büdcədən güzəştli şərtlərlə kreditlər ayırmaqla istehsala vəsait qoyuluşunun artmasına şərait yaradır, başqa tərəfdən isə bu sahənin maddi- texniki resurslarla təmin edilməsində fəal iştirak edir. Bundan əlavə kənd təsərrüfatının istehsalına kömək üçün büdcədən dotasiya həmçinin subsidiyaların ayrılması da həyata keçirilir.

Prof. H. Xəlilovun fikrincə, Azərbaycanla eyni start vəziyyətində olan ölkələrin bu sahədəki müvafiq təcrübələrinə uyğun olaraq, aqrar sahənin kreditləşdirilməsi sahəsində dövlətin rolunun nəzərə alınması zamanı, büdcə vəsaitləri hesabına xüsusi fondun (bir sıra ölkələrdə “Aqrar sahənin güzəştli kreditləşdirilməsi fondu” adlandırılır) yaradılması məqsədəuyğundur [4,s.271]. Bu fondun vəsaitləri isə bir neçə variant üzrə istifadə edilə bilər:

Birinci variant fonddan aqrar sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinə kreditlərin verilməsi ilə bağlıdır. Bu halda fondun vəsaitləri müsabiqə əsasında seçilmiş kommersiya banklarına ayrılır və dövlət tərəfindən müəyyən edilən aşağı səviyyəli faizlərlə (Mərkəzi Bankın mərkəzləşdirilmiş kreditlər üçün faiz dərəcəsinə nisbətən müəyyən edilən baza faizləri üstəgəl kommersiya bankının dövlətlə razılaşdırılan əlavə faiz marjası) kənd təsərrüfatı məhsullarının istehsalçılarına kreditlər verilir. Müştərinin tədiyyə qabiliyyətliliyinin, etibarlılığının müəyyən edilməsi və kreditlərin verilməsi barədə qərar müvafiq kommersiya bankı tərəfindən qəbul edilir.

Aqrar sahənin kreditləşdirilməsi fondu vəsaitinin istifadəsinin göstərilən sxeminin iki əsas üstünlüyü vardır. Belə ki, aqrar istehsalçılar bazarda formalaşmış faiz dərəcələri ilə müqayisədə, əhəmiyyətli dərəcədə ucuz kreditlər almaq imkanlarına malik olurlar. Eyni zamanda güzəştli kreditlərin verilməsi ilə bağlı qərarların qəbulunda kommersiya banklarına dövlət tərəfindən inzibati təzyiqlər göstərilmir. Qeyd olunan variantın çatışmazlığı ondan ibarətdir ki, kənd təsərrüfatı məhsulları istehsalçılarının bank kreditləri üçün zəmanət təminatı sahəsində ciddi problemləri vardır. Nəticədə ayrı-ayrı hallarda bu məqsədlər üçün ayrılmış vəsaitlərdən tam həcmdə istifadə edilə bilməməsi təhlükəsi yaranır.

İkinci variantda aqrar sahənin kreditləşdirilməsi məqsədilə yaradılmış dövlət fondunun vəsaitləri, kommersiya banklarının kənd təsərrüfatı istehsalçılarına verdikləri faizlərin məbləğinin bir hissəsinin ödənilməsi üçün istifadə edilir. Şərqi Avropa ölkələrində tətbiq olunan bu variantın əsas üstünlüyü fonda ayrılmış vəsaitlərin istifadəsinin kənd təsərrüfatı məhsulları istehsalına nisbətən daha böyük həcmdə kreditləri cəlb etməyə imkan yaratmasıdır. Bu halda tətbiq olunan qayda aqrar istehsalçılar üçün kreditləri ucuzlaşdırmağa, kommersiya bankları üçün isə müştərilərin sayını artırmağa yol açır. Digər mühüm cəhət həmin sxemin bazar təsərrüfatçılığı sisteminin prinsiplərinə daha uyğun olmasıdır.

Nəzərdən keçirilən variantın reallaşdırılması, bütövlükdə ölkədə bank sisteminin lazımi səviyyədə inkişafının təmin edilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarının bank kreditlərinə əlyetərliliyi sahəsində müvafiq mexanizmlərin formalaşdıılması ilə bağlıdır. Bu baxımdan qeyd olunan istiqamətdə zəminlərin yaradılmaması ilə bağlı Azərbaycanda hələ 1998-2002-ci illərdə, faizlərin bir hissəsinin dövlət büdcəsinin fermer təsərrüfatları fonduna ayrılmasını nəzərdə tutan vəsaitlər hesabına ödənilməsi yolu ilə kənd təsərrüfatı məhsulları istehsalçılarının kreditləşdirilməsi aparılmışdır.

Üçüncü variant aqrar sahənin kreditləşdirilməsi üçün yaradılan fondun vəsaitlərinin çoxistiqamətli və çoxşaxəli istifadəsi ola bilər. Bu halda, fondun vəsaitləri kənd təsərrüfatı məhsullarının istehsalçılarına birbaşa kreditlərin ve-

rilməsi, kommersiya banklarının verdikləri kreditlər üçün faizlərin subsidiyalaşdırılması və həm də aqrar istehsalçıların müxtəlif maliyyə strukturlarından aldıqları kreditlərə təminat verilməsi üçün istifadə edilə bilər. Prinsipcə, fondun vəsaitlərindən fermerlərin kredit birliklərinin (kooperativlərinin) formalaşdırılması və fəaliyyətinə maliyyə köməkliyi göstərilməsi mümkündür. Bu variant kənd təsərrüfatı kreditlərinin bir sistem kimi formalaşdırılmasının sürətləndirilməsi tələblərinə cavab verir və fonda ayrılmış vəsaitlərin ancaq bir istiqamət üzrə istifadəsi ilə bağlı mövcud çatışmazlıqların nəticələrinin digər istiqamətlərin üstünlükləri ilə kompensasiya edilməsinə imkan verir.

Nəzərə almaq lazımdır ki, sonuncu variantın tətbiqi aqrar sahənin kreditləşdirilməsi üçün dövlət tərəfindən ayrılan vəsaitlərin həcminin müəyyən qədər böyük olması halında məqsədəuyğundur. Aydındır ki, nisbətən kiçik məbləğdə verilən vəsaitlərin bir neçə istiqamətlər üzrə bölüşdürülməsi əlverişli nəticələr verməyə bilər. Bununla yanaşı, kənd təsərrüfatına maliyyə yardımı sahəsində imkanların artırılması perspektivlərinin özlüyündə, həmin variantdan istifadə məsələsinin aktuallığını artıracağı da göz önünə alınmamıldır» [6, s.190 – 191].

Aqrar sahənin maliyyə problemlərinin həllində dövlət himayədarlığı da mühüm çəkiyə malikdir. Bu istiqamətdə görülən sistemli tədbirlər içərisində ayrılan subsidiyalar xüsusi çəkiyə malikdirlər. Belə ki, istehsalçıların xərclərinin əhəmiyyətli hissəsinin subsidiyalaşdırılması son illərdə müşahidə edilən müsbət meyllərin əsas səbəblərindəndir.Bir çox enerji daşıyıcılarının qiymətlərinin artmasının aqrar sahəyə mənfi təsirini azaltmaq üçün, ayrılan subsidiyaların artırılması böyük önəm daşıyır.

Həmçinin aqrar sahənin maliyyə - iqtisadi tənzimlənməsində vergi sistemi də əhəmiyyətə malikdir.Vergi dərəcələrinin artırılması hesabına dövlət kənd təsərrüfatıilə maddi-texniki resurslar, eləcə də iş və xidmətlər sferası arasında gəlirlərin mütənasib olmasını tənzimləyir. Nümunə üçün, kənd təsərrüfatında güzəştli şərtlərlə vergi dərəcələrinin tətbiqi, bir sıra vergi növlərinin ortadan qaldırılması, başqa sahələrdə ancaq vergi dərəcələrinin yüksəldilməsi hesabına qeyd edilən nisbət təmin olunur.

**Beynəlxalq təşkilatları milli aqrar sahənin inkişafına dəstək mexanizmləri.** Araşdırmalar göstərir ki, bu gün beynəlxalq maliyyə təşkilatları ölkəmizdə həyata keçirilən aqrar islahatlarla bağlı müxtəlif proqram və layihələrdə iştirak edirlər. Azərbaycanın kənd təsərrüfatında beynəlxalq təşkilatlar və maliyyə institutları ilə həyata keçirilən layihə və proqramlardan aşağıdakıları qeyd edə bilərik:

1.Dünya Bankının 0,75 % krediti hesabına maliyyələşən və ümumi dəyəri 57.4 milyon ABŞ dolları, kredit müddəti isə 35 il olan "İkinci Kənd Təsərrüfatının İnkişaf edilməsi həmçinin Kreditləşməsi Layihəsi"nin əsas məqsədi fermerlərin həmçinin kiçik və orta kənd təsərrüfatı müəssisələrinin maliyyə, məsləhət və baytarlıq xidmətləri də daxil edilməklə kənd təsərrüfatına dəstək xidmətlərindən yararlanması imkanlarının genişləndirilməsi, bazar təmayülü olan investisiyaların stimullaşdırılması ilə məhsuldarlığın və gəlirlərin artırılmasıdır. Layihənin icrasına 2007-ci ilin 1 yanvar tarixində başlanmış və onun birinci mərhələsi 2011-ci il 1 yanvarda tamamlanmışdır.

Orta həcmli aqrobiznes subyektləri banklar və lizinq şirkətləri üçün maliyyə xidmətləri çərçivəsində hesabat dövründə müqavilə əsasında cəlb edilmiş iştirakçı kommersiya bankları tərəfindən ümumi məbləği 6 milyon 947 min ABŞ dolları olan 41 sublayihə kreditləşdirilmişdir. Sublayihələrin 24-ü heyvandarlığın inkişafı, sublayihənin 5-i istixananın inkişafı, 4-ü quşçuluğun inkişafı, 1-i süd emalı, 2-si nar emalı və 2-siarıçılığın inkişafı üzrə olmuşdur.

Kənd ərazilərində effektiv bazar əlaqələrinin yaradılması (müsabiqələr, qrant proqramı) yarımkomponenti üzrə kənd təsərrüfatının ayrı-ayrı sahələrinə aid 83 təklif daxil olunmuşdur. Dünya Bankı tərəfindən bir sıra təkliflərin maliyyələşdirilməsinə razılıq verilmiş və qrant müqavilələri bağlanmışdır. Beləliklə, qrant müqavilələri təsdiq olunaraq, həyata keçirilməyə başlanmışdır.

Səmərəli kənd-bazar əlaqələrinin inkişafına dəstək proqramının məqsədi ölkədə fəaliyyət göstərən bütün kənd təsərrüfatı istehsalçılarını, tədarükçülərini, aqrar emal, topdan və pərakəndəsatış müəssisələrini əhatə etməklə, kənd təsərrüfatı məhsullarının (taxıl, pambıq, tütün, meyvə, tərəvəz, ət, süd və s.) emalı, kənd

təsərrüfatı maddi-texniki vasitələrlə (traktor, kombayn, qoşqu avadanlıqları, müxtəlif toxumlar və əkin materialları, gübrələr, dərman preparatları, saxlama, emal və satış avadanlıqları və s.) təminatı, yerli və xarici bazarlar haqqında məlumatlarla təmin edəcək sistemin yaradılmasıdır.

Kənd təsərrüfatına dəstək xidmətləri komponenti özlüyündə üç yarımkomponentlərdən ibarətdir. İnformasiya və məsləhət xidmətləri yarım komponenti üzrə 27 inzibati rayonu əhatə edən beş Regional Məsələhət Mərkəzi (Xaçmaz, Göyçay, Şamaxı, Bərdə və Salyan) yaradılmış və hazırda səmərəli fəaliyyət göstərir. Bu regional mərkəzlərdə 378249 nəfər torpaq mülkiyyətçisi fəaliyyət göstərir.

Baytarlıq xidmətləri yarımkomponenti üzrə fəaliyyət hesabat dövründə əməliyyat təlimatlarına uyğun olaraq davam etdirilmişdir. Yarımkomponent çərçivəsində indiyə kimi 44 Özəl Baytarlıq Məntəqəsi yaradılmış və onların hamısında qoyulmuş tələblərə səviyyələrinə mütəxəssislər tərəfindən əməl edilimişdir. Yevlax, Bərdə, Tərtər, Ağdam rayonları və Mingəçevir şəhərində yaradılan özəl baytarlıq məntəqələrində işləmək üçün müraciət etmiş mütəxəssislərlə ilkin treninqlər keçirilmiş, avadanlıqların, mebellərin və dərman preparatlarının satınalınması prosesinə başlanılmışdır.

2.Azərbaycan hökuməti həmçinin Beynəlxalq İnkişaf Assosiasiyası arasında olan sazişə əsasən həyata keçirilən "Azərbaycan Kənd İnvestisiya Layihəsi"nin məqsədi respublikanın Muğan-Salyan, Şirvan və Naxçıvan regionlarında icma layihələrinə sərmayə qoymaqla əhalinin yaşayış səviyyəsini yaxşılaşdırmaqdan, eləcə də infrastruktur xidmətlərindən istifadəni artırmaqdan ibarətdir. Bu layihənin ilk mərhələsi artıq yekunlaşmışdır. Layihə rayonların potensialından faydalı istifadə etməklə sahibkarlığın gücləndlirilməsi və iqtisadiyyatın dinamik inkişafı, yaşayış səviyyəsinin yaxşılaşdırılması və iqtisadi inkişafa nail olmaq kimi məqsədləri daşıyan dövlət proqramlarına dəstək xarakterini daşıyır.

3.Dünya Bankı tərəfindən maliyyələşən "İnstitusional Quşçuluğa Texniki Yardım" layihəsi çərçivəsində və həyata keçirilən restrukturizasiya nəticəsində, 6.1 milyon ABŞ dolları dəyərində "Azərbaycanda quş qripinə hazırlıq" layihəsinin icrası həyata keçirilmişdir. Layihənin əsas məqsədi ev quşlarında quş qripi infeksiyasının və başqa xəstəliklərin insanlar arasında törədəcəyi təhlükənin azaldılması, habelə qrip pandemiyasına cavab tədbirlərinin hazırlanmasına kömək göstərməkdir. Bu məqsədə nail olmaq üçün layihə çərçivəsində aşağıdakı istiqamətlərdə dəstək tədbirləri təşkil edilir:

- profilaktika;
- hazırlıq və planlaşdırma;
- cavab tədbirləri və xəstəliyin yayılmasının məhdudlaşdırılması.

4.Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond (İFAD) 0,75faizди kredit hesabına maliyyələşmə dəyəri 25.2 milyon ABŞ dolları, kredit müddəti isə 40 il olan "Şimal-Şərq İnkişaf Layihəsi"nin məqsədi isə gəlir qazanmaq imkanlarını yaratmaq və genişləqdirilməklə ölkənin şimali-şərqində yerləşən Abşeron, Dəvəçi, Xızı habelə Siyəzən rayonlarının suvarılmış ərazilərində kənd əhalisinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasından ibarətdir.

Layihə çərçivəsində ərzaq təhlükəsizliyinin təkmilləşdirilməsi və gəlir ədə etmək imkanlarının genişləndirilməsi layihə rayonlarının suvarılan ərazilərindən asılı olan əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasını nəzərdə tutulur. Bu məqsədlə su istifadəçilərinə onların istifadəsində olan təsərrüfatdaxili suvarma-drenaj sistemlərinin təmir-bərpasına yardım göstərmək, kredit təşkilatlarının sahibkarlara əsaslı maliyyə xidmətləri göstərilməsinə cəlb edilməsi nəzərdə tutulur.

Azərbaycanda aqrar islahatların investisiya təminatında beynəlxalq maliyyə qurumları əhəmiyyətli rola malikdir. Hazırda onlar ölkə ərazisində kənd təsərrüfatının inkişafına yönəldilmiş investisiya layihələri reallaşdırırlar. Dünya Bankı və Beynəlxalq İnkişaf Assosiasiyası tərəfindən kənd təsərrüfatının inkişaf etməsi eyni zamanda fermerlərin təsərrüfatlarına yardım çərçivəsində üç əsas layihə yerinə yetirilir.

Araşdırmalar göstərir ki, özəl bölmədə yenicə təşəkkül tapmış və kiçik həcmli torpaqlara sahib olan ailə təsərrüfatları daha çox maliyyə çətinlikləri çəkirlər. Onlar ilkin kapitala malik olmadıqları üçün təkrar istehsalı qura bilmirlər. Nəticədə, aqrar sahibkar yüksək məhsuldarlıqlı toxum, gübrələr, bitki mühafizə vasitələri və

texnika əldə edə bilmədiyi üçün ya aşağı məhsuldarlığa nail olur ya da torpaq sahəsini istifadəsiz buraxır.

Banklar kiçik həcmli təsərrüfatların maliyyələşdirilməsində maraqlı deyillər. Odur ki, bu qurumların maliyyə imkanlarının birləşdirməsi, istehsalın zəruri iqtisadi resurslarıla təminatının birgə həll edilməsi zərurəti yaranmışdır. Bu zaman dünyanın inkişaf etmiş ölkələrində aqrar sahənin bazar yönümlü inkişafında mühüm rol oynamış kredit birlikləri formalarından istifadə etmək müsbət nəticələr verə bilər.

Maliyyə ehtiyatlarını bir yerə toplamaq qərarına gələn aqrar istehsalçıların yalnız öz üzvlərinə kredit verən, onlarla maliyyə əməliyyatları aparan könüllü ittifaqı olan kredit birliyində aqrar istehsalçıların fəaliyyəti ancaq maliyyə məsələlərində birləşir.Birliyin hər bir üzvü xüsusi mülkiyyət sahibi kimi və heç kimdən asılı olmadan hansı məhsulu əkib becərmək, kimə və harada satmaq, kənd təsərrüfatı istehsalına zəruri mal-materialları (gübrə, toxum, bitki-mühafizə vasitələri və s.) haradan almaq barədə özü sərbəst qərar qəbul edir. Birliyin üzvləri birgə, eləcə də fərdi surətdə biznes-planlar tərtib edir, borcların geri qaytarılmasına görə yazılı öhdəliklər götürürlər.

Kredit Birlikləri az imkanlı istehsalçılara zəruri istehsal vasitələrinin birlikdə alınması və xidmətlər göstərilməsi funksiyalarını da yerinə yetirə bilərlər. Lakin bu zaman fəaliyyət növü kommersiya xarakteri daşımır və ondan heç bir gəlir götürülmür. Məsələn, toxum, gübrə və yanacağın alınması, traktor, maşın və digər mexanizmlərin icarəyə götürülməsi, yeni işçilərin cəlb edilməsi və s. məsələlərdə bu hallar müşahidə olunur.

Qeyd edək ki, respublikda təşəkkül tapmış kredit hərəkatı öz təşkilatlanma dövrünü keçirir. Bu zaman i müxtəlifformalarda fəaliyyət göstərən maraq qruplarının diqqətini bir məsələyə yönəldilməsini zəruri hesab edirik. Belə ki, aqrar sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslər öz ortaq problemlərinin həlli üçün kredit birliklərindən istifadə etməklə, müsbət nəticələrə çata bilərlər. Bu, hər şeydən əvvəl kiçik emal sexlərinin, saxlama, qablaşdırma və soyuducu müəssisələrinin, digər infrastruktur obyektlərinin yaradılmasında özünü göstərə bilər. Məsələn, iribuynuzlu mal-qara saxlayan və süd istehsalı ilə məşğul olan 20-25 nəfər fermer yaxud fiziki şəxslər öz məhsullarının kiçik emal müəssisəsində süd məhsullarına (pendir, yağ, qatıq, ayran və s.) çevrilməsində maraqlı olmasalar, istehsalı artırmaqda, məhsulu bazarlara çıxarmaqda, yüksək gəlir götürməkdə problemlərlə üzləşə bilərlər. Əgər onlar kredit birliyi yaradıb, onun vasitəsilə vəsaitlərini kənddə kiçik süd emalı müəssisəsinin qurulmasına yönəltsələr, həm həmkəndlilərinə kömək etmiş olarlar və həm də onlardan satın aldıqları südün emalından əlavə gəlir götürə bilərlər.

Məlumdur ki, aqrar sahədə müxtəlif regionların istehsal potensialı bir-birindən fərqlənir. Buna görə də, həyata keçirilən maliyyə - investisiya siyasəti, dövlət yardımı, digər maliyyə və kredit vəsaitləri də buna uyğun aparılmalıdır. Burada isə ən mühüm məsələ – aqrar sahənin malik olduğu təbii-iqlim şəraitinə uyğun olan və strateji əhəmiyyət kəsb edən kənd təsərrüfatı məhsulları istehsalının prioritet sahələrinin seçilməsi, həmçinin daxili və xarici bazar tutumunun, tələbatın müəyyən edilməsidir.

**Nəticə**

Aqrar sahənin kreditləşdirilməsi sahəsində fəaliyyət göstərən kreditorlar, adətən müxtəlif regionlarda yerləşən kiçik ölçülü və rəqabətqabiliyyəti aşağı olan müştərilərə xidmət göstərirlər. Buna görə də, kommersiya bankları onlara xidmət etməyə bir o qədər də maraq göstərmirlər. Digər tərəfdən, bəzən makroiqtisadi səviyyədə baş verən müəyyən situasiyalar, aqrar sahədə kreditləşdirmə şəraitinin daha da pisləşməsinə və bəzi maliyyə qurumlarının bu fəaliyyət sahəsindən uzaqlaşmasına səbəb olur. Buna görə də, maliyyə münasibətlərinin çox inkişaf etdiyi ölkələrdə belə ixtisaslaşdırılmış, kənd təsərrüfatına xidmət edən banklar və digər qurumlar saxlanılmaqdadır. Eyni zamanda, aqrar sahənin maliyyələşdirilməsi sahəsində ixtisaslaşdırılmış qurumların səmərəli fəaliyyətini təmin etmək üçün bu sahədə dövlət nəzarətinin gücləndirilməsi zəruri və aktualdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. http://www.e-qanun.az/framework/41320

2. Abbasov İ.M. "Azərbaycan və dünya ölkələrinin kənd təsərrüfatı" Bakı, Elm, 2015, 301 s.
3. Hüseynov, T.N. Azərbaycanda investisiyalar (gəlirlər, investisiyalar, sənayeləşdirmə, məşğulluq) Bakı: Elm, 2009. 380s.
4. Xəlilov, H.A. Milli ərzaq təhlükəsizliyi: bazar transformasiyaları və iqtisadi qloballaşma amilləri. Bakı: Adiloğlu, 2007. 375 s.
5. Paşayev, T.N. "İnvestisiyalar və onların müasir dövrdə Azərbaycan iqtisadiyyatının inkişafında rolu". Lənkəran, 2011, 302s.
6. Salahov, S.V. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı: Nurlar, 2004. 504s.
7. Pardey, Ph Nienke M. 2021. "Investments Agricultural Research." World Development 25(3):409-423
8. https://www.stat.gov.az/source/agriculture/az/1.6.xls

**Рафаэль Сабир оглы ГУСЕЙНОВ**
Азербайджанский Университет Кооперации, докторант

## НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ ИНВЕСТИЦИОННО-ИННОВАЦИОННОГО ОБЕСПЕЧЕНИЯ РАЗВИТИЯ АГРАРНОЙ СФЕРЫ

**Резюме**

Устойчивое и конкурентоспособное развитие сельского хозяйства основано на обеспечении инвестиций и инноваций. Для этого необходимо привлечение инвестиций из различных источников на благоприятных условиях и применение инновационных технологий. Здесь также важна успешная реализация программ и проектов, реализуемых международными организациями.

В представленной статье нашли отражение исследования эффективных направлений инвестиционного и инновационного развития аграрного сектора.

**Ключевые слова:** развитие, инвестиции, кредит, фонд, производительность, агробизнес

**Rafael Sabir HUSEYNOV**
Azerbaijan Cooperation University, doctoral student

## DIRECTIONS FOR IMPROVING THE INVESTMENT-INNOVATION PROVISION OF THE DEVELOPMENT OF THE AGRARIAN FIELD

**Summary**

Sustainable and competitive development of agriculture is based on ensuring investment and innovation. This requires the attraction of investments from various sources under favorable conditions and the application of innovative technologies. The successful implementation of programs and projects implemented by international organizations is also important here.

In the presented article, studies on the effective directions of investment and innovative development of the agricultural sector have been reflected.

**Keywords:** development, investment, credit, fund, productivity, agribusiness.

**Daxil olub:** 02.08.2023